# Hz. Mehdi (ə.s)-ın tələbələri Axır zamanın yüksək texnologiyası olan təyyarələr vasitəsiylə dünyanın dörd bir tərəfinə səyahət edəcəklər

***ONUN DOSTLARI BULUDLARA MİNİB İSTƏDİKLƏRİ YERƏ GEDƏ BİLƏCƏKLƏR.***

*(Mucem-ul Ehadis-i İmam Mehdi cild: 1, səhifə: 296; Keşf-ul Ğummə cild: 2 səhifə: 470; Muntəhab-ul Eser səhifə: 554)*

Peyğəmbərimiz (s.ə.v), Hz. Mehdi (ə.s)-ın zühur edəcəyi axır zamanda istifadə ediləcək yüksək texnologiyaya bir çox hədisi şərifləriylə diqqət çəkmişdir. Peyğəmbərimiz (s.ə.v)-in bəhs edilən hədislərində verdiyi əhəmiyyətli məlumatlar hazırkı dövrümüzdə istifadə edilən bir çox texnologiya yeniliklərlə üst-üstə düşür. Peyğəmbərimiz (s.ə.v)- in xəbər verdiyi axır zaman texnologiyalarından biri də təyyarədir və Hz. Mehdi (ə.s)- ın tələbələrinin də bu texnologiyadan faydalanacaqlarını bildirmişdir. Hadisə görə Hz. Mehdi (ə.s)-ın yaxın tələbələri və ona mənəvi cəhətdən dərindən bağlı olan digər müsəlmanlar, İslam əxlaqının dünya hakimiyyətinə vəsilə olacaq, təbliğ fəaliyyətləri üçün dünyanın dörd bir tərəfinə hava yolları vasitəsi ilə səfər edəcəklər. Peyğəmbərimiz (s.ə.v) bunu "***buludlara minib istədikləri yerə gedə biləcəklər"*** ifadəsiylə çox dəqiq bir şəkildə ifadə etmişdir. Bilindiyi kimi buludlar ümumiyyətlə troposfer təbəqəsində yerləşir, təyyarələr də qitələrarası uçuşlarını bu təbəqənin üstündə yerləşən strotosfer üzərində edirlər. Nəticədə Peyğəmbərimiz (s.ə.v)- in istifadə etdiyi "buludlara minib getmək" ifadəsi, deyilən bu elmi fikrlərə tam uyğun gəlir.



https://www.harunyahya.info/az/meqaleler/hz-mehdi-es-in-telebeleri-axir-zamanin-yuksek-texnologiyasi-olan-teyyareler-vasitesiyle-dunyanin-dor